Millətə sevdalı Sabir,

# yaxud «Sabirin milli intibah idealı» kitabı

*(Əvvəli ötən saylarımızda)*

Təyyar Salamoğlu istər sovet dövrü ədəbiyyatşünaslığının və istərsə də çağdaş ədəbi tənqidin Sabirə münasibətdə məqbul və müvafiq yanaşmalarının demək olar ki, heç birisinin üstündən sükutla keçmir. O, yaxşı bilir ki, «bir qocaman dağa» bənzəyən Sabirin birdən-birə bütün tərəfləri tam aydın görünə bilməz. Bunun üçün, zamanın, ədəbi düşüncənin əsaslandırma imkanlarının yaranması üçün təkcə ictimai, iqtisadi şəraitlər az idi. Bunun üçün siyasi şəraitin də yetişməsi vacib idi. Ona görə də tənqidçi özünəqədərki mənəvi bazanı həssaslıqla öyrənir.

Ədəbi-düşüncənin inkişafını dəqiqliklə izləyir. Sabiri olduğu kimi görməyə yardımçı olan hər bir düşüncə materialını saf-çürük edir, dəyəri olan fikir işıqlarının üstündən kölgəni götürür və dəyərini obyektivliklə verməyə çalışır. Bu Təyyar Salamoğlunun özünəqədərki, yaxud Sabirli düşüncələrini - yeni yanaşma tərzini yazıya gətirənə qədərki materialın təhlili - analizə çəkildiyi indiki dövrümüzəcən davam edir. Bu, onun sələflərinə və müasirlərinə vicdanlı, dəqiq və aydın mənəvi meyarla yanaşmasının təzahürüdür: *«Əlbəttə, kapitalist və fəhlə, mülkədar və kəndli münasibətlərini siniflərarası antoqonist ziddiyyətlər müstəvisinə gətirib Sabiri "burjua-mülkədar ağaların amansız qənimi" kimi təqdim etmək olar, "qəmsizqayğısız, tufeyli həyat sürən, "millət qəmi"ndən uzaq olan hakim və istismarçı siniflərə qarşı şairin kəskin nifrətindən"* ***(Məmmədov M. Şairin poetik irsi. (Ön söz). M.Ə.Sabir. Hophopnamə. Bakı. "Yazıçı", 1992, s.8)*** *söz açaraq onu "inqilabçı şair" elan etmək olar. Lakin bu baxış heç bir halda Sabir satirasının müasirliyini şərtləndirən keyfiyyət kimi çıxış edə bilməz. Bu mənada sabirşünas alim A.Bayramoğlu Sabir satirasının inqilabi məzmununu "inqilabçıların ideyalarını nəzmə çəkmək"də yox, "təsvir, ifadə tərzi ilə" "əxlaqda, mənəviyyatda", "sosial-psixoloji" sferada yaratdığı "köklü dəyişikliklər"də axtarmaqda haqlıdır* ***(Bayramoğlu A. "Bənzərəm bir qocaman dağa ki...." Bakı. "Elm", 2010, s.416).*** *A.Bayramoğlu Sabir yaradıcılığının sosial məramına müasir ədəbiyyatşünaslıq düşüncəsi ilə tam dəqiq qiymət verərək yazır: "Sabir poeziyası, satirası da xalqın özünüdərkinə, özünütəsdiqinə və milli istiqlalına mane olan, ona əngələ çevrilən cəhətləri, yəni ictimai düşüncə tərzini tənqid edirdi"* ***(Bayramoğlu A. "Bənzərəm bir qocaman dağa ki....". s.413).*** *Bu cür yanaşmanın sovet ədəbiyyatşünaslığındakı ənənəvi baxışdan tipoloji fərqi orasındadır ki, A.Bayramoğlu tənqid hədəfinə münasibətin, tənqiddə məqsədin psixoloji tərəflərini də düzgün müəyyənləşdirir: "İki cür inikas var. Bir var, insanı bədbinləşdirər, daha da ruhdan salar. Bir də var nöqsanı elə göstərəsən ki, sən bu əzabdan daxilən sarsılıb, bu əzabdan hərəkətə gəlib silkinmək fikrinə düşəsən, bu da eybəcərliklərdən, nöqsanlardan xilas olmaq üçün səndə daxili potensiallı hərəkətə gətirə".* ***(Bayramoğlu A. "Bənzərəm bir qocaman dağa ki....". s.414).***

*Sabir əksər hallarda tənqid edirdi, bu tənqidin mahiyyətində kinayə dayanırdı, ifşa yox. İfşadan fərqli olaraq, kinayədə hədəf kimi seçilmiş tipin "daxili potensialı"nı hərəkətə gətirmək gücü var. Bu, Sabir tənqidinin təlqin gücüdür. Milli həyat problemlərinin inikasında ifşa psixoloji cəhətdən özünü doğrulda bilməz, o, ancaq "insanı bədbinləşdirər, daha da ruhdan salar". İfşadan təlqinə yol yoxdur. İfşa məhv etmək, "kökündən qazımaq" məqsədi daşıyır. İfşa üzərinə tərbiyəedicilik funksiyası götürmür. Ancaq kinayə tənqid hədəfini "daxildən sarsıtmaq" və bu sarsıntının gücü ilə onun daxili potensialını işə salıb məqsədə doğru aparmağa imkan verir»* **(Təyyar Salamoğlu. M.Ə.Sabirin milli intibah idealı. Bakı-2015, səh.64-66).**

Mirzə Ələkbər Sabir həyat adamı idi. Həyatın gözəlliyi ilə yanaşı eybəcərliyini də görə bilirdi. Onu da bilirdi ki, ilahi gözəlliklərin sifətlərini tərənnümlə varlığı çirkaba batmış olanları yuyub təmizə çıxarmaq mümkünsüzdür. Gərək əvvəlcə hər kəsin kimliyini göstərə biləsən. Onun iyrənc təbiətini açasan... Yalnız bundan sonra, bəlkə, o, yuyulmağa, arınmağa razılıq verdi.

Sabir qırıb-çatmaq, asıb-kəsmək qəsdində deyildi **(hərçənd ki, sözü qılıncdan da kəskin idi).** O, sadəcə özündən əvvəl başlanmış yolu davam etdirirdi. Q.B.Zakir, Seyid Əzim Şirvani, M.F.Axundov... hələ bir qədər də əvvələ getsək, M.P.Vaqif bu yolu başlamışdı. Sabiri Tanrı zamanın gücünə güc göstərəcək qüdrətdə xəlq etmişdi.

Akademik Tofiq Hacıyev Sabir və cəmiyyət probleminə həm də Sabiri doğuran mühit **(xarakter)** kimi baxır: *«Həyat həqiqətini, xalq həyatını axundovcasına əks etdirmək, həyata axundovcasına münasibət Sabir yaradıcılığına hakimdir. Həyat və poeziyanın qarşılıqlı əlaqəsi probelimini Sabir məhz Axundov kimi başa düşmüş və XX əsrlə başlanan inqilablar dövründə bu problemi axundovcasına həll etmişdir. Bu problem Sabir üçün artıq problemlikdən çıxıb, aydın bir məsələyə çevrilmişdi. Daha aydın idi ki, poeziya yalnız «dilbərdən», «güldən» ibarət deyil, burada yöndəmsiz insanlar da yaşayar, ətirsiz bitkilər də bitər; artıq aydın idi ki, şeirdə bülbülün, tovuz quşunun, maralın, ceyranın əvəzinə, zəhmət heyvanları, vəhşilər və «zülfün» yerinə «şələsaqqal» bədii təşbehə çevrilə bilər, «tərənnüm» edilər»* **(Tofiq Hacıyev, «Sabir: qaynaqlar və sələflər», Bakı-1980, səh.84).** Görkəmli




alim Sabirin öz qəhrəmanlarına münasibətini - poetik təsvirini **«tərənnüm»** adlandırır. Və bu sözü dırnaqda işlədir. Başa düşüləndir. Bir sözlə, Sabir bilmişdi ki, artıq cəmiyyətin başını sığallamaqla, gül suyu **(gülab)** içirməklə, bülbül nəğməsi dinlətməklə onu xilas etmək, düşdüyü girdabdan çıxarmaq mümkün deyil. Zənnimizcə, Sabirin cəmiyyətə kəskin və sərt münasibətinin kökləri **(tarixi),** səbəbləri **(mənəvi amillər)** daha dərinlərlə bağlıdır. Artıq qeyd etdik ki, Sabir cəmiyyətin çürüdüyünü görürdü. Özündən əvvəl imtina olunmuş orta əsrlər yolunun kara gəlmədiyini də başa düşmüşdü. O, öz reanimasiyasına bütöv cəmiyyəti yerləşdirmişdi. Bu reanimasiyada könüllü ölümlər icra olunmurdu. Burada etgenozi **(razılıqla ölüm)** olmadığı kimi eşafot da yox idi. Ancaq kəskin sərt göy gürültüsü, ildırımla müşayiət olunan sellər axır, leysan yağışlar yağırdı. Yuyuna, durula bilən, sağ çıxmaq imkanı olanlara yol açıq idi. Burada ictimai aşağı, nə də ictimai yuxarı fərqi də yox idi. Bəlkə, ictimai yuxarılara **(müqavimətlərinin hesablanmasına görə)** münasibət daha sərt idi. Sabir belə Sabir idi. Professor Tofiq Hacıyev Sabir poeziyasının xarakteristikasını davam etdirir və biz Sabir timsalında meydan savaşçısını görürük: *«Bu məsələləri ilkin olaraq Axundov həll etmişdi, o, hər kəsi öz geyimində səhnəyə çıxartmış, hərəni öz dilində danışdırmışdı; ilk dəfə Axundovda nəbatat yalnız gül, lalə, nərgiz çərçivəsindən çıxıb, hər cür bitkisi ilə bütöv bir mənzərə kimi ədəbiyyat vərəqləyənlərin gözləri qarşısında canlandı: təbiəti, cəmiyyəti əyani şəkildə nümayiş etdirən M.F.Axundov birinci olaraq bülbül əvəzinə, xoruzu səhnəyə gətirdi.* ***(«Kimyagər»də).*** *Sabir öz ustadı M.F.Axundovun bu ictimai hərəkətlərini poeziyada işıqlandırmalı idi. Bu, sadəcə təkrar deyildi: Sabir poeziyanı göylərdən yerə endirməli idi. Elə asta endirməli idi ki, o yerə təmas edərkən zədələnməsin. Lakin Sabir belə etdimi? Qətiyyən! O bu işi sərt bir hərəkətlə icra etdi. Çünki Sabir poeziyada zəriflikdən çox sərtlik görmək istəyirdi. O, poeziyanı güclü bir küləkdə ləçəkləri göyə sovrulan gül kimi yox, kəsən, doğrayan, neştərləyən, qılınc kimi təsəvvür edirdi. Buna görə də Sabir poeziyanı elektrik sürəti ilə göylərdən endirdi. Sabir «bir əsrin» (A.Səhhət) işini bir anda gördü. Poeziyanın özünə heç nə olmadısa da, bu eniş sürətindən çoxlarının gözünə qaranlıq çökdü. Bu, Sabiri əsla vahiməyə salmadı, çünki o, poeziyanın əsl yüksəlişini onun yerə - kütləyə təmasında görürdü. Bu əqidəni Sabir öz müəllimi Axundovdan mənimsəmişdi»* **(Tofiq Hacıyev, «Sabir: qaynaqlar və sələflər», Bakı-1980, səh.85).**

Göründüyü kimi, hər kəsi olduğu görkəmdə təqdim etmək Sabirdən əvvəl də var idi. Sadəcə, Sabir bu görkəmin yaramazlığını daha aydın göstərmək üçün rəngləri daha qatı çəkirdi. Murdarı ifşa etmək cəza olsa da, müəyyən mənada bu təmizi qorumaqdır. Profilaktikadır, mühiti sağlamlaşdırmaqdı. Cəza müəssisəsində cinayətkarı məhv etmək məqsəd deyil, onu islah etmək məqsəddir. Zənnimcə, Təyyar Salamoğlunun *«ictimai yuxarılar»*a loyal münasibəti onlara islah olunmadan bəraət vermək, açıb cəmiyyətə buraxmaq deyil ki, onlar öz əməllərinin (Sabirin kəsib doğradığı) icrasına yenidən başlasınlar. Əslində, o, göstərmək istəyir ki, həqiqətən yuxarıda olan *(mənəvi olaraq)* ictimai yuxarılarla heç Sabirin də işi olmayıb: *«Sabir əkinçi və fəhləyə potensial bir qəhrəman - istiqbalımızı müəyyən edəcək vətəndaşlar olaraq baxdığı kimi, «ictimai yuxarılar»a da eyni münasibət bəsləyir, istiqbal naminə onlara da ümid gözü ilə baxırdı. Sabirə burjua münasibətlərinin yenicə formalaşdığı dövrdə «müsəlman fəhlələrin qayğısına qalan», onların «qismən də olsa, maddi vəziyyətlərinin yaxşılaqdırılması»na nail olan H.Z.Tağıyev, Ş.Əsədullayev, M.Səlimxanov, M.C.Əliyev kimi milli burjuaziya nümayəndələrinin, «həmişə yoxsullara kömək etməyə və onların qayğılarına qalmağa çalışan» İsmayıl xan Ziyadxanlı, Allahyar bəy Zülqədərov, Fərrux bəy Vəzirov kimi mülkədarların adları və əməlləri yaxşı məlum idi. Sabirin satirik qəhrəmanları - «Əkinçi»dəki mülkədar, «Fələ»dəki kapitalist, «Nuriçeşmanımmısan, ey pul, canımmısan» deyən sərvətdar milli həyat problemlərinə, vətən və onun taleyinə münasibətdə H.Z.Tağıyev, yaxud İsmayıl xan Ziyadxanlı deyildilər. H.Z.Tağıyevdən, İsmayıl xan Ziyadxanlıdan fərqli olaraq onlar öz şəxsi mənafelərindən kənar məsələlər haqqında düşünə bilmirdilər. Onlar bu cür düşüncə tərzindən hələ ki, uzaq idilər. Ancaq məsələ burasındadır ki, ictimai şüuru milli mənafeyə kökləmək zamanın tələbi, zamanın istəyi idi. Burjua münasibətləri bu cür düşüncə tərzini formalaşdıracaq ideoloqlar yetirirdi. Bu mənada Mirzə Cəlil də, Sabir də, Ə.Hüseynzadə və Ə.Ağaoğlu da, A.Səhhət və Hadi də «burjua münasibətləri»ndən doğulmuşlar idi»* **(Təyyar Salamoğlu «M.Ə.Sabirin milli intibah idealı», Bakı-2015, səh.70-71).**

Professor Təyyar Salamoğlu fikirlərini yekunlaşdırarkən yazır ki, əslində *«Füyuzat»*çılıq da, *«Molla Nəsrəddin»*çilik də bu müstəvidə ərsəyə gəlmişdi. Bircə onu əlavə edək ki, birincisi, ictimai yuxarılara, ikincisi, ictimai aşağılara daha çox bağlı olsa da.

* * *

Bir də qeyd etməyə dəyər ki, ictimai yuxarılar və ictimai aşağılar arasındakı münasibət kapitalizmin qanunauyğun inkişafında olan cəmiyyətin əbədi problemidir. Bu problemi barışmaz ziddiyyətlər müstəvisinə çıxarmamaq üçün insan haqlarının qanunla tənzimlənməsinə nail olmaq və qanunla tənzimlənən demokratik inkişaf yolu əsas olmalıdır. Yoxsa, *«dəmir daban»* təhlükəsi hər an özünü göstərər, ictimai yuxarıların azğınlığına şərait yaradan mühit qaçılmaz olar.

Təyyar Salamoğlu Sabirin sevdalısı olduğu millətin birliyini qorumaq istəyir. Əslində, hamımız bunu istəyirik. Görünür, istəmək azdır...

*(Davamı 9-cu səhifədə)*

(Əvvəli 8-ci səhifədə)

## POLEMİKA FİKİR AÇARIDIR,

### *yaxud «İctimai yuxarılar», tənqid və Salamoğlu*

«M.Ə.Sabirin milli intibah idealı» kitabındakı 3-cü məqalə «Sabirşünaslıq monopoliyadırmı?» sual-başlığı ilə təqdim olunur. Bu yazı, əslində, kitabdakı ikinci yazı ilə **(«Sabirin milli intibah idealı» - «İctimai yuxarılar»a münasibət kontekstində")** bağlı - şərh və şərhə münasibətlə bağlı qələmə alınıb.

Bəri başdan demək yaxşı olar ki, elmdə mənimsənilmiş sahə yoxdur. O ki, ola «Sabirşünaslıq». Sabirşünaslığın xammalı kimi götürülən Sabir irsi zaman getdikcə daha dərin laylardan təzə-təzə mənaları ilə üzə çıxır, nəsillərin dəyişməsi fonunda yeni nəsil tədqiqatçılar formalaşır, Sabir irsi ilə bağlı yeni ədəbi düşüncə materialları ilə mənəvi həyatımızı zənginləşdirirlər.

Hər halda Sabir bizi üzü gələcəyə, irəliyə hərəkətə səsləyir. Düz yoldan azanı da görür, səhvlərinə dolaşıb yıxılanı da...

«Sabirşünaslıq monopoliyadırmı?» məqaləsinə müəllif ikinci başlıq da verib: «Sabirşünaslığa «töhfə» müəllifinə». Həmin ikinci başlıqdakı «töhfə» sözünün dırnağa alınması mənanın ifadəsində çoxlu sözə qənaət etməklə sabirsayağı yük daşıdığını bildirir.

Doğrusu, professor Tərlan Novruzovun ikinci dəfə həmin yazıya qayıtması və inkarçı mövqedən yanaşması məni təəccübləndirdi. Həm də təəssüfləndim. Çünki *nailiyyətləri kimi bu materiallardan gələcək işlərimizdə söhbət açacağımızdan, indiki halda Sabir irsinə yeni konseptual baxışı ilə seçilənlərindən qısaca da olsa söhbət açmağı lazım bilirik. Məsələn, prof.T.Salamoğlunun «Sabirin milli intibah idealı»* ***(«İctimai yuxarılar»a münasibət kontekstində)*** *məqaləsi bu baxımdan diqqəti cəlb edir. Sabirşünaslığın irəliyə doğru hərəkətində metodoloji qüsurları aşkarlayıb ümumiləşdirmək məqsədi ilə yazılmış məqalədə polemika doğuran məqamlar olsa da, müəllif əsasən sovet dövrü, qismən də müstəqillik dövr ədəbiyyatşünaslığın M.Ə.Sabiri inqilabçı şair elan edib sosrealizmin astanasına qədər gətirib çıxarmaq kimi cəhdlərinə qarşı çıxıb, onlara tənqidi yanaşır. O, tədqiqatlarda özünə davamlı yer alan xalq anlayışının ancaq «ictimai aşağılar»a aid edilib və Sabirin də ancaq bu təbəqənin mənafeyi nöqteyi-nəzərindən çıxış etməsi tendensiyasını sənətə ideoloji yanaşmanın təzahürü hesab edir.*

*T.Salamoğlu M.Ə.Sabirin milli şair olduğunu, onun poeziyasının milli intibah uğrunda mübarizədən doğulduğunu elmi təhlillərlə əsaslandırmağa çalışır. Belə hesab edir ki, ədəbiyyatşünaslıq Sabir yaradıcılığında tənqidin hədəfini düzgün müəyyənləşdirsə də, sənətkarın tənqid hədəflərinə münasibətlərini sinfi mövqedən şərh edir. T.Salamoğlu Sabir satirasında «İctimai yuxarılar»a inkarçı, ifşaçı, məhvedici münasibəti qəbul etmir və Sabir satirasında inkar pafosunun yox, təsdiq pafosunun aparıcı olduğunu əsaslandırmağa çalışır. «Sabirin hədəfi vətəndaşlıq düşüncəsindən məhrumluq, məqsədi vətəndaşlıq düşüncəsi uğrunda mübarizədir» tezisini irəli süşafına və gələcək perspektivlərinə inam oyatmaqla, ədəbiyyatşünaslığımızın bu sahəsinin yeni bir mərhələyə daxil olması haqqında qənaət irəli sürməyə əsas verir»* **(T.Novruzov «Sabirşünaslıq Azərbaycanda və xaricdə» Bakı-2012, səh.284-286).** Professor Tərlan Novruzovun *«Kaspi»*dəki yazısı isə daha çox inkar motivi ilə yadda qalır. Tərlan Novruzovun bu fikirləri məndə acı bir təəssüf yaratdı: *«Yerli-yersiz, nə məqsədlə isə böyük nəzəriyyəçi alim Yaşar Qarayevlə, hətta bir sıra tezislərin də ondan süzülüb gəlməsinə baxmayaraq (bu süzülmələr sənin yaxşı bildiyin müasir ədəbiyyata dair tədqiqatında da görünür), polemikaya girirsən, məqalənin bu cəhəti də məndə mənəvi üzüntü yaratdı... Mənə elə gəlir ki, məbədə gedən yolu zibilləməzlər! Kaş Yaşar sağ olaydı!.. Nə isə...»* **(Təyyar Salamoğlu «M.Ə.Sabirin milli intibah idealı», Bakı-2015, səh.77).** Yaxud ikinci sitat. T.Novruzov yazır: *«...Əsasən tanınmış tənqidçi, ədəbiyyatşünas, yeni dövr ədəbi-nəzəri fikrinin əsasını qoyan Y.Qarayevin irəli sürdüyü konsepsiyadan çıxış edə-edə, özü də guya onunla polemikaya girmişdir»* **(Təyyar Salamoğlu «M.Ə.Sabirin milli intibah idealı», Bakı-2015, səh.81).** Tərlan Novruzovun yazısında kinayə **(əsaslı olub olmaması bir tərəfə),** tənə, müəllif şəxsiyyətinə toxunan ifadələr də var. Təəssüf ki, kin və qərəz də duyulur.

Eləcə də professor Təyyar Salamoğlunun cavabında da ifşaedici **(polemika ilə bağlı açıqlaması)** məqamlar da az deyil. Onun cavabında qəzəb qədərindən artıqdır. Hər halda Salamoğlu ifşanı yox, islah və təlqini daha üstün bilib, təqdir edirsə, gərək üslubunda da bunu nəzərə alaydı.

ki, prof. Təyyar Salamoğlu ruh etibarı ilə polemikaya daha çox meyl edən ədəbiyyatşünas alimdir. Buradaca xatırladıram ki, onun çox dəyərli nəzəri mülahizələri, ədəbiyyatşünaslığımızın keçdiyi yoldakı üstü örtülü qalmış sirləri açan yazıları elə onun cəsarətli polemik ruhu ilə yazılıb. Bəlkə də polemikasız bu yazılar **(elə bu kitabda Tənqidçinin azərbaycançılıq idealı ilə cəlb edilmiş əsərləri, yaxud, Azərbaycan ədəbiyyatı: mübahisələr, həqiqətlər" kitabı)** yazıla, yüksək tənqidi dəyərdə araya-ərsəyə gələ bilməzdi; Bu baxımdan onun bir etirafının səmimiyyətinə inanmamaq mümkünsüzdür: *«Biz keçdiyimiz az-çox elmi yaradıcılıq yolumuzu polemika üzərində qurmuşuq və təkcə görkəmli alim Y.Qarayevlə polemika aparmamışıq. Bizim polemikalarımız yeni dövr Azərbaycan ədəbiyyatı və ədəbiyyatşünaslığı hüdudlarındadır. Bizim dahi sənətkarımız M.F.Axundzadə, prof. B.Çobanzadə, akademik M.A.Dadaşzadə, akademik M.C.Cəfərov, akademik K.Talıbzadə, prof. Q.Kazımov, prof. N.Qəhrəmanlı, prof. Y.Axundlu, prof. B.Əhmədov, tənqidçi Əsəd Cahangir, tənqidçi-publisist Əli Rza Xələfli ilə və digər görkəmli alimlərimizlə elmi dialoq, poelimikamız - ədəbi mübahisələrimiz var. Bu ədəbi mübahisələrin hesabına biz ədəbiyyatşünas alim-tənqidçi kimi öz mövqeyimizi ortaya qoymuşuq»* **(Təyyar Salamoğlu «M.Ə.Sabirin milli intibah idealı», Bakı-2015, səh.79).** Təyyar Salamoğlunun polemikasında *«ədəbiyyat naminə» «ədəbiyyatın mənafeyi»* ifadələrinə tez-tez olmasa da əsaslı məqamlarda rast gəlmək olar. Ədəbiyyatın və ədəbiyyatşünaslığın, həm də insanşünaslıq, cəmiyyətşünaslıq mahiyyətini qəbul etsək, onda de-

Millətə sevdalı Sabir,

# *yaxud «Sabirin milli intibah idealı» kitabı*

Tərlan Novruzovun *«Sabirşünaslıq Azərbaycanda və xaricdə»* kitabını diqqətlə oxumuşam. Və bir vaxt həmin kitabla bağlı qeydlərimi də yazmaq istəyirdim.

Bir sözlə, adıkeçən məqaləyə Tərlan Novruzov öz kitabında bir neçə səhifə yer ayırıb.

Yubiley ərəfəsində Sabirşünaslığa təkan verən işlərin xülasəsi verilir. Və burada akademik R.Hüseynovun bədii estetik düşüncə ilə yazılmış, eyni zamanda, həm də maraqlı tədqiqatlarla zəngin olan əsərləri də Sabir obrazına səngiməyən maraqdan xəbər verir. Həmin xülasədən bir parça, həm də dəyərli məlumat mənbəyi kimi yadda qalır: ***«R.Hüseynov Sabir saatı (Azərbaycan, ingilis və rus dillərində), B.2012; Yenə onun «Söz heykəli» (2012)*** kitabında Sabirə həsr olunmuş oçerk, s.12-30. Xatırladaq ki, bu oçerk Sabirin elmi tərcümeyi-halı üçün çox dəyərli olmuşdur. Burada Sabirin Bakıda üçüncü dəfə heykəlinin qoyulması istəyinin baş tutmaması səbəbi ilk dəfə olaraq tutarlı mənbə ilə əsaslandırılmışdır; T.Novruzov. ***«Mirzə Ələkbər Sabir - 150. Davam edən ənənələr», B.2012; A.Bayramoğlu. «Sabir Bakıda», B.2012 və s. (səh.283).*** Bunlar öz yerində. Bəs professor Tərlan Novruzov həmin yubiley ilində professor Təyyar Salamoğlunun Sabirşünaslıqda yeni yanaşma ilə yazılmış tədqiqat əsəri haqqında nə düşünürdü? Həqiqətən bir çoxları tərəfindən çətin həzm olunan **(bəlkə həzm olunmayan)** məqaləsini necə dəyərləndirmişdi?

Əlbəttə, sualı verib cavabsız qoymaq oxucuya hörmətsizlik olardı. Mübahisələrin qızışmış ehtiraslar səviyyəsinə qalxmasını ötmüş hesab etdiyimizdən tərəflərin mübahisə zəmini ilə bağlı münasibələrini bir tərəfə qoyuram. Diqqəti yönəldirəm professor Təyyar Salamoğlunun əsərinə - tədqiqatına. Professor Tərlan Novruzovun daha obyektiv münasibətin təzahürü hesab etdiyim mərhələyə;

Professor Tərlan Novruzovun 2012-ci ildə **(kitab həmin il çap olunub)** münasibəti belə olub: *«Sabirşünaslığın ən son rən tədqiqatçı «ictimai yuxarılar»a münasibətdə Sabir satirasının ifşaedici xarakter daşımadığını, bu tənqidin «İctimai şüur yoxsulluğuna qarşı çevrilərək tərbiyəvi mahiyyət daşıdığını əsaslandırmağa çalışır».*

*Aşağıdakı tezislər prof. T.Salamoğlunun dahi şairin irsinə tamam fərqli mövqedən yanaşdığını göstərir: «Sabir əksər hallarda tənqid edirdi, bu tənqidin mahiyyətində kinayə dayanırdı, ifşa yox, ifşadan fərqli olaraq kinayədə hədəf kimi seçilmiş tipin «daxili potensialı»nı hərəkətə gətirmək gücü var. Bu, Sabir tənqidinin təlqin gücüdür. Milli həyat problemlərinin inikasında ifşa psixoloji cəhətdən özünü doğrulda bilməz, o ancaq «insanı bədbinləşdirər, daha da ruhdan salar»* ***(A.Bayramoğlu).*** *İfşadan təlqinə yol yoxdur. İfşa məhv etmək, «kökündən qazımaq» məqsədi daşıyır. İfşa üzərinə tərbiyəedicilik funksiyası götürmür. Ancaq kinayə tənqid hədəfini «daxildən sarsıtmaq» və bu sarsıntının gücü ilə onun daxili potensialını işə salıb məqsədə doğru aparmağa xidmət edir».*

*Tədqiqatçı bu fikirdədir ki, Sabirin əksər satiralarında sosial tipə münasibət tənqiddən - kinayədən təlqinə doğru gedir. Sabir sosial tipin dünyagörüşündəki hansısa cəhəti tənqid edir və eyni zamanda hansısa cəhəti onu təlqin edir. Burada hədəf sosial tipin təbii varlığı deyil, onun sosial varlığında özünə yer alan məhdudluq, dünyagörüşündəki naqislik hədəf seçilir. Məqsəd dünyagörüşünə təsir edib onu dəyişməkdir.*

*Deməliyik ki, T.Salamoğlu Sabir poeziyasının milli intibah uğrunda mübarizədən doğulduğunu elmi təhlillərlə əsaslandırır. Lakin onun Sabir satirasında «İctimai yuxarılar»a inkarçı, ifşaçı, məhvedici sifəti qəbul etməməsi və eləcə də onun tənqidinin mahiyyətində kinayə dayanırdı, ifşa yox mövqeyi ilə razılaşmaq olmaz. Hər şeydən əvvəl ona görə ki, «Hophopnamə»dəki satiraların mühüm bir qismi öldürücü, ifşaedici xarakter daşıyır və s.*

*Bununla yanaşı T.Salamoğlunun bu araşdırması sabirşünaslığın bugünkü inki-*

Bircə bunu deyirəm: Elm belə *"zarafat"*ları xoşlamır. Sonralar yaddaş bu tipli *«zarafatlar»*ı təəssüflə xatırlayır. Yeni fikir sədəf içindəki incidir. Sədəf sınmasa, inci aşkar olmaz. Sədəfin sındırılması inkardan doğulan yenilikdir.

İnkarı inkar dialektikanın əsas qanunlarındandır. Bir vaxt Yaşar Qarayev də Sabirşünaslıqda yeni nəfəsi özündən əvvəlkiləri qismən inkarla gətirmişdi. Professor Təyyar Salamoğlu da siyasi mühitin gətirdiyi yeni şəraitdə öz konsepsiyasını təkmilləşdirir və irəli sürə bilir. Açığı etiraf edirəm ki, Təyyar Salamoğlunun inkarında yenilik və inkişaf görürəm. Bu Sabirşünaslığın inkişafı olduğu kimi mənəvi durumumuzun da inkişafı, zənginləşməsi deməkdir. Mübahisəni buraxaq tərəflərin və gələcəyin ixtiyarına. Ancaq *«Sabirşünaslıq monopoliyadırmı?»* məqaləsi başqa bir cəhəti ilə daha çox yadda qalır.

Müəllifin **(Təyyar Salamoğlunun)** polemika, ədəbiyyatın mənafeyi və s. haqqında düşüncələri bütövlükdə ədəbi mənzərəyə mənəvi borc hissini ifadə edir. Tarixi-fəlsəfi aspektdə polemikanın tarixi çox qədimdir. *«Bilqamıs»*da baş qəhrəmanın **(Bilqamısın)** dostu Enkidu, yaxud onların şər qüvvələrlə fikir-düşüncə döyüşləri, *«Avesta»*da Hörmüz və Əhrimənin dünyaya, həyata, insana münasibət baxımından mübahisələri, *«Dədə Qorqud»* kitabında tərəflərin özünü təqdim edən mübahisələri, yaxud Aristotelin müəllimi Platonla, Platonun Sokratla, Ezopun öz ağası ilə polemikaları bəşərin mənəvi inkişafında az rol oynayıbmı?

Professor polemikaya fikrin inkişafı üçün sehirli iksir kimi baxır, mənəvi tərəqqidə polemikanın rolunu qabarıq **(ancaq şişirtmədən)** göstərir: *«Səhv etmirəmsə, prof. R.Uluselin məqalələrindən birində böyük rus nəzəriyyəçilərindən birinin təxminən aşağıdakı məzmunda bir mülahizəsinə rast gəlmişdik: «Əgər sənin polemikan yoxdursa, bu, o deməkdir ki, bir alim kimi sən özün yoxsan»* **(Təyyar Salamoğlu «M.Ə.Sabirin milli intibah idealı», Bakı-2015, səh.78).** Artıq biz qeyd etmişik məliyik ki, o, elə insan naminə, insanlığın mənafeyi naminə mübarizə aparır. İnsanı həyatın dibindən çıxarmaq ona layiq olduğu zirvəni göstərmək, hətta o zirvəyə çıxmaq üçün ona mənəvi güc, təpər bəxş etmək onun yaradıcılığının əsas məğzi, mayasıdır. Bunu hələ illər öncə ustadımız akademik Bəkir Nəbiyev də müşahidə etmiş, rəğbət və təqdirlə dəyərləndirmişdir: *«İstedadlı ədəbiyyatşünas N.Paşayeva haqqında yazdığı məqaləsindəki bir mülahizəsini iqtibas etsək, deyə bilərik ki, polemika T.Salamoğlunun konseptual mövqeyindədir; elmi problemləri özünəməxsus düşüncə stixiyası ilə həll etmək bacarığındadır. Araşdırma zamanı onun prinsipial elmi mövqedə dayanması, bununla belə, özündən əvvəlki tədqiqatçıların fikirlərinə hörmətlə yanaşması da təqdir olunmalıdır»* **(Bax: B.Nəbiyev. Hərənin öz yolu var... Bakı-2008, səh.350).**

*(Davamı var)*



*Əli Rza XƏLƏFLİ*